# Ermənistan uduzduqca quduzlaşır

***Müzəffər Azərbaycan Ordusunun Ermənistana qarşı əks-hücum əməliyyatları davam edir. Azərbaycan Silahlı Qüvvələri artıq işğal altındakı torpaqlarımızın bir hissəsini azad edib. Hər gün olduğu kimi, oktyabrın 27-dən 28-də keçən gecə və gün ərzində də cəbhənin müxtəlif istiqamətlərində düşmən ordusuna ağır zərbələr endirilib. Ermənistanın silahlı qüvvələri çoxlu canlı qüvvə və texnika itirib. Bununla belə, düşmən uduzduqca quduzlaşır və Azərbaycanı cəbhə zonasından uzaqda olan şəhər və kəndlərimizi atəşə tutmaqda davam edir.***





### Düşmənə zərbə

Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatlara görə, humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-də gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutublar. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücumunun qarşısı qətiyyətlə alınıb, erməni hərbçiləri itki verərək geri çəkiliblər.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı ordumuzun gördüyü cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar olub. Eyni zamanda, bir neçə döyüş texnikası məhv edilib. Düşmənin artilleriya bölməsinin topları və döyüş sursatları sıradan çıxarılıb.

Məlum olub ki, düşmənin avtomobil texnikalarının sayı əhəmiyyətli dərəcədə azaldığından ön xətdəki bölmələrin ərzaq və silah-sursatla təminatında problemlər yaranıb.

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd "Osa" ZRK, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd "Konkurs" tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

### Ermənistan çarəsiz vəziyyətdədir

Ordumuz qarşısında məğlub olaraq geri çəkilən Ermənistan isə ölkədən toplanan hərbi vəzifəliləri Azərbaycanın işğal olunmuş ərazilərinə göndərməkdə davam edir. Son günlərdə Ermənistan rəhbərliyinin döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin toplanması barədə tapşırıq verməsinə baxmayaraq, bütün ölkə üzrə cəmi 300 nəfər toplamaq mümkün olub. Hətta bir çox hərbi müqaviləlilər və polis əməkdaşları belə cəbhəyə getməkdən imtina edirlər. Bu barədə məlumatı da Azərbaycanın Müdafiə Nazirliyi yayıb.

Artıq xəbər verildiyi kimi, oktyabrın 27-də terrorçu Qarabağ rejiminin "müdafiə naziri", general-leytenant Cəlal Arutyunyan Azərbaycan Ordusu tərəfindən məhv edilib. Erməni mətbuatının verdiyi məlumata görə, dünən terrorbaşı Arayik Arutyunyan ona "Qarabağ qəhrəmanı" adının verilməsi haqqında "fərman" imzalayıb. Bu barədə Arutyunyan özünün facebook səhifəsində yazıb. Xatırladaq ki, Azərbaycan Ordusunun PUA-sı Arutyunyanı və onunla avtomobildə olan digər hərbçiləri sərrast atəşlə məhv edib.

Azərbaycanın əks-hücum əməliyyatı nəticəsində Ermənistanın düşdüyü ağır durum haqqında danışan ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza bildirib ki, bu ölkənin baş naziri Nikol Paşinyan çarəsiz vəziyyətdədir. Baş nazir Ermənistan əsgərlərini Azərbaycan ərazilərindən çıxarmamaqla beynəlxalq hüququ pozmaqda davam edir. Brayza deyib: "O, çarəsiz olduğu üçün belə edir. Azərbaycanın hərbi strategiyasının bu günə qədər heyrətamiz dərəcədə uğurlu olduğunu bilir. Azərbaycan texnoloji üstünlüklərindən istifadə edərək Ermənistanın bahalı hərbi obyektlərini, hava hücumundan müdafiə sistemlərini, tanklarını, zirehli texnikasını, artilleriyasını, hərbi binalarını və ordusunun şəxsi heyətini məhv etdi. Ermənistanın buna müqavimət göstərməyə hərbi gücü yoxdur".

Brayza inanmır ki, kimsə Ermənistanın müdafiəsinə gəlsin. Rusiya da artıq yardıma gəlməyəcəyini bəyan edib. Çünki döyüşlər Azərbaycan torpaqlarında gedir. ABŞ diplomatı Azərbaycanın bütün torpaqlarını, yəni Dağlıq Qarabağı və ətraf rayonları minimal itki ilə geri alacağına inanır.

Artıq Ermənistandakı partiyaların rəhbərləri Paşinyanın istefaya getmək vaxtının çatdığını açıq şəkildə bəyan edirlər. Dünən Ermənistanın sabiq milli təhlükəsizlik naziri, 1994-1995-ci illərdə Ermənistan Prezidentinin Qarabağ nizamlanması üzrə xüsusi nümayəndəsi olmuş David Şahnazaryan da Paşinyanı istefaya çağırıb. Məlumatı erməni mətbuatı verib.

### Dinc sakinlər atəşə tutulur

Ermənistan silahlı qüvvələrinin bölmələri təkcə humanitar atəşkəslə bağlı bu günlərdə götürdüyü öhdəlikləri deyil, həm də beynəlxalq hüquq normalarını pozaraq, dinc sakinlərimizi ən ağır silahlardan atəşə tutmaqda davam edir. Oktyabrın 28-də gecə və səhər Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimiz və bölmələrimizin mövqeləri atıcı silahlardan atəşə tutulub. Müdafiə Nazirliyinin məlumatına görə, düşmən Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən Azərbaycanın Tovuz, Gədəbəy, Daşkəsən və Qubadlı rayonlarının əraziləri atəşə tutub. Səhər saat 07.35-dən 09.00-dək isə Ağcabədi rayonu ərazisi atəşə məruz qalıb.

Oktyabrın 28-də saat 07.30 radələrində Ermənistan silahlı qüvvələri Tərtər rayonunun ərazisini də artilleriya atəşinə tutub. Ümumiyyətlə, Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində sentyabrın 27-dən indiyədək 69 mülki şəxs qətlə yetirilib, 322 nəfər isə yaralanıb. Yararsız vəziyyətə düşmüş mülki obyektlərin sayı 415, çoxmənzilli yaşayış binalarının sayı 92, yaşayış evlərinin sayı isə 2 338-dir.

ABŞ Dövlət katibinin keçmiş müşaviri Pol Qobl hesab edir ki, Azərbaycan şəhərlərinin Ermənistan tərəfindən artilleriya və raket atəşlərinə tutulması Bakını cavab reaksiyası üçün təxribata çəkmək və Moskvanı münaqişəyə cəlb etmək məqsədini güdür. Pol Qobl bildirib ki, Azərbaycanın təmas xəttindən uzaqda olan dinc əhalisi üzərinə hücumlar son dərəcə təhlükəlidir: "İrəvan başa düşməlidir ki, Azərbaycan onun bu hərəkətlərindən sonra erməni qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına ikiqat səylə çalışacaq. Məncə, Ermənistan bu addımı ona görə atır ki, Azərbaycanı cavab tədbirləri üçün təxribata çəksin. İrəvanın fikrincə, Azərbaycanın cavab tədbirləri Moksvanı münaqişəyə cəlb edəcək və Rusiya Ermənistana dəstək verəcək. Bu isə ondan xəbər verir ki, Yerevan öz mövqelərinin zəiflədiyini görür və özünümüdafiə məqsədilə "vabank" gedir".

### Azərbaycana dəstək

Dünən Dağlıq Qarabağ münaqişəsi ətrafında danışıqlar da aparılıb. Rusiya Prezidenti Vladimir Putinlə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan arasında bu məsələ ilə bağlı telefon söhbəti baş tutub. Kremlin mətbuat xidmətinin məlumatına görə, tərəflər Dağlıq Qarabağ münaqişəsini müzakirə ediblər.

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun azərbaycanlı həmkarı Ceyhun Bayramovla telefon danışığı olub. Bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Hər iki ölkənin XİN başçılarının Qarabağ münaqişəsi ilə bağlı son vəziyyəti müzakirə etdiyi bildirilir.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.-29 oktyabr.- S.8.